# DAVAMLI İNKİŞAF PRİNSIPİ VƏ İOHANNESBURQ SAMMİTİNDƏ TÜRKİYƏNİN İŞTİRAKI

**EYUP ZENGİN MUSTAFA oğlu**
*Bakı Dövlət Universiteti*

Rio konfransından on il keçdikdən sonra təbii sərvətlərin qorunması və inkişaf etdirilməsi, iqtisadi siyasətlərin, sosial yanaşma tərzlərinin təbiətlə, ətraf mühitlə harmoniyasında qət olunan məsafələr İohannesburq Sammitində müzakirə obyektinə çevrildi (3).

Rio konfransının on illik yubileyinə həsr olunmuş və şərti olaraq Rio-92+10 adlandırılan BMT-nin Davamlı İnkişaf üzrə Ümumdünya Sammiti 26 avqust – 4 sentyabr 2002-ci il tarixində Cənubi Afrika Respublikasının paytaxtı İohannesburqda keçirilmişdi. İohannesburq zirvə toplantısı dünya ölkələrinin on il əvvəl verdiyi sözlər və nümayiş etdirdikləri hazırlıq səviyyələrini üzə çıxarmaq baxımından əhəmiyyətli olduğu qədər həm də bir çox problemləri də ortaya çıxardı.

İohannesburq sammitində iştirak eləyən bütün ölkələrin nümayəndələrinin cavab verməli olduqları suallar içərisində bir sual da bundan ibarətdir ki, aradan təxminən otuz il keçməsinə və dünya ölkələrinin məhsul istehsalı gücünün əhəmiyyətli ölçüdə artmasına baxmayaraq, İndira Qandinin dilə gətirdiyi problemlər nə üçün yenə də aktual olaraq qalmaqdadır? Əlbəttə, vəziyyətin belə halda olmasının məsuliyyətinin kimlərin üzərinə düşdüyü məsələsi də müzakirə olunmalıdır.

26 avqust günü İohannesburqda bəşəriyyətin ətraf mühitlə həqiqətən münasibətlərini nizama salacaq yeni bir dövrün əsasını qoyan irəliləyişlər görünməyə başlandısa da, ilk əvvəl dünya miqyasında insanlığın aclıq və yoxsulluğa düçar olunan qismi önündəki qeyri-bərabərlik və istismar edilmə kimi maneələri necə ortadan qaldıracağı məsələsi müzakirə obyektinə çevrilməlidir.

Türkiyə Davamlı İnkişaf üzrə Ümumdünya Sammitində dövlət başçısı Əhməd Necdət Sezerin rəhbərliyi altında olan bir heyətlə iştirak edirdi. Heyət üzvləri arasında Baş Nazirlik, Xarici İşlər Nazirliyi, Turizm Nazirliyi, Ekologiya Nazirliyi və başqa dövlət strukturlarının vəzifəli şəxsləri yer alırdılar. Sammitə hazırlıq çərçivəsində bu sahədə milli məruzənin hazırlanmasında iştirak edən ictimai təşkilatların nümayəndələri də heyətə daxil edilmişdi (1).

Təbiətin mühafizəsi, iqtisadi yüksəlişlə ekoloji tarazlığın təmin edilməsinin düzgün qiymətləndirilməsi dünya ölkələrinin üzərinə düşən ümumi məsuliyyət olduğuna və onun qorunması üçün hər bir ölkə cavabdehlik daşıdığına görə problemlər də ancaq bir araya gəlib ortaq bir

anlayışla hərəkət edilməsi sayəsində mümkün ola bilər. Bu baxımdan bir sıra ölkələr davamlı inkişafa keçidlə bağlı beynəlxalq təşkilatlar, ictimai quruluşlar, yerli hakimiyyətlər, yüksək elmi dairələr, özəl sektor və mətbuat orqanları kimi ictimai sferanın bütün qatlarını əhatə etməklə bu sahədə müəyyən işlər görmüş, bəzi ölkələr isə hətta öz milli konsepsiyalarını hazırlayıb həyata keçirməyə başlamışlar.

Bununla əlaqədar olaraq hazırlanmış Ətraf Mühitin Mühafizəsi üzrə Milli Fəaliyyət Planı çərçivəsində görülən əməli tədbirlərdə həm milli baxımdan önəm daşıyan, həm də beynəlxalq əhəmiyyətli olan milli konsepsiyalarda yer alacağı nəzərdə tutulan və ayrı-ayrı adlar altında fəaliyyət göstərəcək altı qrup yaradılmış, məruzələrin hazırlanmasına paralel, ictimai təşkilatlar və araşdırma mərkəzləri içərisindən altı ayrı quruluş müəyyən olunmuşdur.

Fəaliyyət göstərən həmin qruplar və bu fəaliyyətləri paralel olaraq tənzim edəcək quruluşlar aşağıdakılardan ibarətdir:

- İdarəçilik və Davamlı İnkişaf, İULA-EMME (Beynəlxalq Yerli İdarəçilər Birliyi – Şərqi Ağ dəniz və Orta Şərq Bölgə Təşkilatı);
- Yoxsulluqla Mübarizə və Davamlı İnkişaf, TESEV (Türkiyə İqtisadi və Sosial Etüdlər Vəqfi);
- Davamlı İnkişafda İş Dünyası və Sənaye, ÇEVKO (Təbiəti Qoruma və Gərəksiz Qabları Qiymətləndirmə Vəqfi);
- Davamlı İnkişaf üçün İnformasiya və Texnologiya, TÜBİTAK – MAM (Mərmərə Araşdırma Mərkəzi);
- Bioloji Növ Müxtəlifliyinin Qorunması və Davamlı İnkişaf, TÜDAV (Türk Dəniz Araşdırmaları Vəqfi);
- İqlim Dəyişmələri və Davamlı İnkişaf, TTGV (Türkiyə Texnologiya İnkişaf Vəqfi);
- Milli Məruzə aşağıda müəyyən olunan sferalar çərçivəsində hazırlanmışdı (5);
- milli və beynəlxalq qanunvericilik, siyasətlər və proqramlar əsasında fəaliyyətlərin müəyyən olunması və qiymətləndirilməsi; əgər var isə müxtəlif siyasət və strategiyalar arasındakı ziddiyyətlərin qeydə alınması;
- ən yaxşı əməli işlər və ya ən pis təcrübələrlə birlikdə, mövcud qanuni ictimai təşkilatları da nəzərdə tutacaq bir şəkildə 1992-ci ildən bəri əldə olunan nailiyyətlər və məruz qalınan uğursuzların ortaya çıxarılması;
- son on ilin başlıca fəaliyyət meyllərinin qiymətləndirilməsində Davamlı İnkişafa keçidi təmin edən istiqamətlərin müəyyən olunması;
- haqqında danışılan məsələ ilə bağlı prioritet sahələrin və maliyyə ehtiyaclarının müəyyən edilməsi;
- davamlı inkişafın üstünlükləri nəzərdə tutularaq həyata keçirilən proqramların təkmilləşdirilməsi üçün hansı sahələrdə dəyişikliklər edilməsinin vacibliyi üzərində dayanılması, praktik üsul və vasitələri də əhatə edəcək bir şəkildə çərçivə siyasəti müəyyən edən tövsiyələrin verilməsi.

Davamlı inkişaf üzrə milli məruzə (konsepsiya) hazırlanarkən üzərində ən çox dayanılması gərək olan nöqtə digər şəriklərin həm də ən geniş şəkildə təmsil olunması ilə hazırlanmasıdır. Bunun üçün də bütün hazırlıq mərhələsi boyunca ictimai təşkilatları və yerli hakimiyyətləri

məlumatlandırmaq məqsədilə toplantılar təşкil edilmiş, кoordinasiyaedici quruluşların hazırladıqları məruzələr müzaкirə olunmuş, ayrıca bu məqsədlə internetin imкanlarından istifadə edilmişdir. Bütün bunlardan başqa, prosesdə daha çox sayda şəxsin və quruluşun iştiraкını təmin eləməк məqsədilə əlavə bir qrup da yaradılmışdır (6).

Məruzədə Türкiyənin də mənafeyi baxımından böyüк əhəmiyyət daşıyan Davamlı İnкişafa кeçidin təmin olunmasının idarəçiliк, yoxsulluğun ortadan qaldırılması, iş dünyası və sənaye, informasiya və texnologiya, bioloji müxtəlifliyin qorunması və iqlim dəyişiкliyi ilə bağlılıqları xırdalıqlarına qədər nəzərdən кeçirilmiş, bu sahələrdə qazanılan uğurlarla bərabər nöqsanlar və кəm-кəsirlər olduğu da vurğulanmışdır (5).

Fəaliyyət Planının layihəsi 24-25 avqust 2002-ci tarixlərində qeyrirəsmi olaraq müzaкirəyə verilmiş, 26 avqust tarixində isə layihə üzərində iş yarımqruplar çərçivəsində davam etdirilmişdi. Ümumi razılıq əldə edilməsi mümкün olmayan məsələlərlə bağlı müzaкirələr isə nazirlər səviyyəsində кeçirilən yığıncaqlarda gündəliyə çıxarılmışdı. Fəaliyyət Planı on iкi gün sürən gərgin müzaкirələrdən sonra bərpası mümкün olan enerji, zərərli кimyəvi maddələr, təbii ehtiyatlar, iqlim və bu кimi məsələlərlə bağlı nazirlər səviyyəsində aparılan müzaкirələrə yeкun vurulmuş və 2002-ci ilin 4 sentyabrında Baş Assambleya tərəfindən qəbul edilmişdir (8).

Ümumdünya Sammiti zamanı Fəaliyyət Planında üzərində xüsusi olaraq dayanılan problemlərdən biri кimi təbii ehtiyatların mühafizəsində eкosistem yanaşma tərziylə bərpa oluna bilən enerji qaynaqları məsələsi Türкiyə üçün xüsusi əhəmiyyət daşıyır.

Eкosistem yanaşma üsulu torpaq, su və qaynaqların bütövlüкdə və bir arada götürülməsini tələb edir. Beləliкlə, iqtisadi sahədə göstərilən fəaliyyətlərdə ətraf mühitin mühafizəsi məsələsi prioritet qazanmış olur. Eкosistem yanaşma ən çox da Avropa Birliyi tərəfindən qəbul edilmişdir. Türкiyənin mənafeyi baxımından su və torpaq ehtiyatlarına söyкənən inкişaf layihələrinin eкosistemləri ən az təsirə məruz qoyacaq bir şəкildə həyata кeçirilməsi əhəmiyyət кəsb edir (1).

Bu anlayışdan hərəкət edərəк Fəaliyyət Planının 23-cü maddəsində təbii resursların mühafizəsi baxımından eкosistemin qorunmasının кifayət elədiyi və ayrıca eкosistem yanaşmanın Plana daxil edilməsinə zərurət olmadığı fiкri Türкiyə heyəti tərəfindən irəli sürülmüş və G-77-lərin də dəstəкləməsi ilə həmin maddədə xüsusi eкosistem yanaşma anlayışına yer verilməmişdir.

Fəaliyyət Planında müzaкirəsi ən çətin кeçən və ətrafında da ən gec razılığa gəlinən məsələ-bərpası mümкün enerji problemi olmuşdur. Bərpası mümкün enerji qaynaqları məsələsi ilə bağlı, Avropa Birliyinin böyüк bəndləri bərpa oluna bilən qaynaqlardan ayırmaq yönündə Türкiyənin görüşlərinə uyğun olmayan bir tövsiyəsi də sammitin gedişində gündəliyə çıxarılmış, laкin qəbul edilməmişdi.

Bir tərəfdən, bəndlər də daxil olmaqla, bərpası mümкün enerji qaynaqlarının artırılması və su ilə təminat məsələləri üzərində dayanıldığı halda, digər tərəfdən də, bəndlər tiкilməsi işinə mane olacaq eкosistem yanaşmanın ön plana çıxarılması və bərpası mümкün enerjidən böyüк bəndlərin ayrılmasına çalışılmasının özlüyündə ziddiyyətli bir vəziyyət yaratdığını görməк mümкündür. Bununla bərabər, qarşıdaкı dövr-

də Avropa Birliyinin istər ekosistem konsepsiyasını, istərsə də böyük bəndlərin bərpası mümkün enerji qaynaqlarından təcridi və ya bu cür bəndlərin tikintisinin çətinləşdirilməsini cürbəcür vəsilələrlə gündəliyə çıxaracağını gözləmək olar (1).

Fəaliyyət Planına öz arzu elədiyi hədəfə çatmaq imkanı verməyən Avropa Birliyi bərpası mümkün enerji qaynaqları ilə bağlı üzərinə götürdüyü öhdəlikləri vurğulamaq üçün ayrı bir ümumi bəyannamə açıqlamışdı. Türkiyə də bu ortaq bəyannaməyə qoşulmuşdu.

Sammitdən alınan mühüm bir nəticə də İohannesburq Bəyannaməsi olaraq bilinən Siyasi Bəyannamədir (8). Cənubi Afrikanın səlahiyyətli şəxslərinin hazırladıqları siyasi bəyannamə layihəsi xarici işlər naziri Zumanın Avropa Birliyi üzvü ölkələri, JUSCANZ, G-77 və Çin, eləcə də Avropa Birliyi üzvlüyünə namizəd ölkələrin yaratdıqları Mərkəzi Qrup ilə apardığı görüşmələr sonunda daha dolğun və məzmunlu bir şəklə gətiriləRək 2002-ci ilin 4 sentyabrında Baş Assambleyada qəbul edilmişdi. İohannesburq Bəyannaməsində ölkələrin yerli, regional və qlobal miqyasda davamlı inkişafa keçidi təmin etmək üçün birgə məsuliyyət daşıdıqları fikri vurğulanmış, Fəaliyyət Planında əksini tapan məsələlərin həyata keçirilməsi və ətraf mühitin mühafizəsinə cavabdeh olduqları xüsusi qeyd edilmişdir. İohannesburq Bəyannaməsinə təbii fəlakətlərə dair mövzunun daxil edilməsi də Türkiyə heyətinin təşəbbüsləri sayəsində olmuşdur (1).

Sammit çərçivəsində Fəaliyyət Planı ilə bağlı məsələlərin müzakirə olunduğu toplantılar xaricində, müəyyən olunan su, enerji, sağlamlıq, kənd təsərrüfatı və bioloji müxtəliflik kimi ən mühüm beş məsələ üzrə problemlərin görüşülüb müzakirə edildiyi yığıncaqlar təşkil edilmişdir. Həmin yığıncaqlarda cəmiyyətdəki başlıca doqquz sosial qrupla (qadınlar, uşaqlar və gənclər, yerli əhali, qeyri-hökumət təşkilatları, yerli hakimiyyət, işçilər və həmkarlar, iş və sənaye sahəsi, elm və texnologiya dairəsi, əkinçilər) bərabər, hökumət nümayəndələrinə də söz verilmişdi (6).

28 avqust – 3 sentyabr 2002-ci il tarixlərində təmiz su ilə təminat və çirkli suların təmizlənməsi yolu ilə əhalinin sağlamlığının qorunması kimi məsələlərin müzakirə olunduğu Su Forumu keçirilmişdir.

Ölkələrdəki yerli idarəetmə orqanlarının Davamlı İnkişafdakı rolu və bununla bağlı problemlərin müzakirə obyektinə çevrildiyi Yerli İdarəetmələr bölmə iclası 27-30 avqust 2002-ci il tarixləri arasında keçirilmişdi. İclasda Türkiyədən “XXI əsrin Lokal Gündəliyi Proqramı”nın həyata keçirildiyi vilayətlərin valiləri və bələdiyyə rəisləri ilə yanaşı ictimai təşkilatlar (Habitat və XXI əsrin Gündəliyi, Beynəlxalq Yerli İdarəetmə orqanları Birliyi) da iştirak edirdilər.

İctimai təşkilatların Davamlı İnkişaf konsepsiyasına baxışının geniş şəkildə gözdən keçirildiyi İctimai Forum ilə 1 sentyabr 2002-ci il tarixində keçirilən və sammitin gündəliyində nəzərdə tutulan problemlərə iş adamlarının münasibətini formalaşdırmaq, eləcə də davamlı inkişafa keçidin təmin olunması üçün iş dünyası ilə ortaqlıq qurulması məqsədini güdən İş Dünyası Toplantısı zirvə toplantısına paralel davam edən və onun işinə yekun vuran yığıncaq mahiyyətində olmuşdur.

2-4 sentyabr tarixləri arasında təşkil olunan dəyirmi stol görüşlərində su, enerji, səhiyyə, kənd təsərrüfatı, bioloji növ müxtəlifliyi kimi sahələrdə əməkdaşlığın genişləndirilməsi və bu məqsədlə inkişafa yar-

dımlar etmək üçün rəsmi olaraq fəaliyyətə başlanılması üzərində dayanılmışdır.

Sammit zamanı təşkil olunan əlavə tədbirlərdə davamlı inkişafa keçidi praktik fəaliyyət baxımından ən yaxşı təmin edən ölkələr kimi müəyyən olunan Türkiyə və Bolqarıstanın "XXI əsrin Lokal Gündəliyi" konsepsiyaları iştirakçıların diqqətinə çatdırılmışdır. "XXI əsrin Regional Gündəliyi" proqramı 1997-ci ildən etibarən Birləşmiş Millətlər İnkişaf Proqramı (UNDP) və "Çərçivə XXI" proqramının dəstəyi ilə İstanbulda Beynəlxalq Yerli İdarəetmə Orqanları Birliyi Şərqi Ağ dəniz və Orta Şərq Bölgə Təşkilatının birgə rəhbərliyi altında Türkiyənin 48 şəhərində davamlı inkişafa keçidi təmin edən milli konsepsiya təkmilləşdirilməklə həyata keçirilməkdədir (5).

Sammit çərçivəsində 3 sentyabr axşamı UNDP-nin də iştirakı ilə "Regional Təşəbbüs naminə Əməkdaşlıq" adı altında Türkiyə prezidenti Əhməd Necdət Sezer ilə Bolqarıstanın dövlət başçısı Purvanov və UNDP-nin baş direktoru M.Brounun məruzəçi kimi iştirak etdikləri əlavə tədbirdə Türkiyədə XXI əsrin Regional Gündəliyi proqramı tanıdılmışdı.

Sammit çərçivəsində olan bir digər fəaliyyət də Ubuntu sərgi sahəsində təşkil ounan yarmarkada bir Türkiyənin təbliği məqsədi daşıyan Türk stendinin açılması və bununla yanaşı Davamlı İnkişafa keçidlə bağlı hazırlanan milli konsepsiyanı izah edən və Türkiyədə bu istiqamətdə həyata keçirilən tədbirləri, görülən işləri ən yaxşı şəkildə işıqlandıran sənədlərin paylanılmasından ibarət olmuşdur.

İctimai təşkilatların "Habitat və "XXI əsrin Regional Gündəliyi" adı daşıyan sərgi sahəsindəki stendlə də Türkiyədə həyata keçirilən "XXI əsrin Regional Gündəliyi" proqramının mahiyyəti iştirkaçılara çatdırılmışdır.

Toplantıdan alınan ən mühüm nəticələrdən biri də "Fəaliyyət Planı"nda müəyyən olunan qlobal hədəflərə çatmaq məqsədi daşıyan müştərək layihələrin tanıdılması olmuşdur ki, bununla da iştirakçı tərəflərin layihələrə qoşulmasını təmin etmək istiqamətində işlərin başlanğıcı qoyulmuşdur.

Son üç ildə qəbul edilən "Minilliyin Bəyannaməsi", "Doha Nazirlər Bəyannaməsi", "Montrö Müqaviləsi" və "İohannesburq Bəyannaməsi" ilə sosial, iqtisadi inkişaf və ətraf mühitin mühafizəsinin başlıca müddəa və istiqamətləri müəyyən olunmuş, həmin sənədlərdə davamlı inkişafa dair əksini tapan prinsiplər iştirakçı dünya ölkələri tərəfindən razılıqla qarşılanmış, dəstəklənmiş və qəbul edilmişdir. Bu çərçivədə hər bir ölkənin üzərinə düşən məsuliyyətin öhdəsindən konkret fəaliyyətlərlə gəlinə bilməsi üçün insanların həyat səviyyəsinin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Bu baxımdan yanaşdıqda sammitdə qəbul edilən sənədlər Türkiyədə göstəriləcək fəaliyyətlərin də istiqamətini müəyyən etmiş olacaqdır (2).

Türkiyə irəli sürülən təəhhüdləri yerinə yetirmək sahəsində gördüyü işlərə görə, irəlidə haqqında danışılan məruzədə adı qeyd olunmasa da, 2002-ci ilin 24 sentyabrında keçirilən bir mərasimdə mükafata layiq görülmüşdür.

Türkiyənin davamlı inkişafın milli strategiyasının hazırlanıb həyata keçirilməsi sahəsində gördüyü işlər haqqında qısaca aşağıdakı şəkildə məlumat vermək olar:

UNDP (Birləşmiş Millətlərin İnkişaf Proqramı) devizi altında və bu proqramın dəstəyi ilə həyata keçirilməkdə olan “Türkiyədə XXI əsrin Yerli Gündəliklərinin Stimullaşdırılması və İnkişafı” layihəsi 1997-ci ildə UNDP, Türkiyə Cümhuriyyəti və İULA-EMME (Beynəlxalq Yerli İdarəetmələr Birliyi, Şərqi Ağ dəniz və Orta Şərq Bölgə Təşkilatı) tərəfindən imzalanaraq, beynəlxalq bir konvensiya mahiyyəti qazanmışdır. Layihə 1998-ci il martın 6-da rəsmi qəzetin təkrar sayında dərc olunmuşdur. Türkiyə bələdiyyələri baxımından “XXI əsrin Yerli Gündəliyi”ndə irəli sürülənlərin həyata keçirilməsinə başlanılması üçün Daxili İşlər Nazirliyinin 19 mart 1998-ci il tarixli təlimatnaməsi təşviqedici mahiyyətdə olmuşdur. Haqqında bəhs olunan layihənin təftişi 1999-cu il fevralın 8-də Türkiyə Cümhuriyyətinin rəsmi qəzetində dərc edilmişdi.

“Türkiyədə XXI əsrin Yerli Gündəliklərinin Stimullaşdırılması və İnkişafı” layihəsinin çıxış nöqtəsi Birləşmiş Millətlərin bayrağı altında təxminən son on ildə keçirilən ən böyük yığıncaqlardan olan 1992-ci il Ümumdünya Sammiti - Rio konfransında qəbul edilən “XXI əsrin Gündəliyi” prinsiplərinin 28-ci bölməsində dünyanın bütün ölkələrindəki yerli idarəetmə orqanlarına (bələdiyyələrinə) “öz xalqları ilə məsləhətləşmələrə başlamaq və “XXI əsrin Gündəliyi”ndəki müddəalarda anlaşıb qarşılıqlı razılığa gəlmək” şəklindəki qlobal miqyaslı çağırışdır. Layihədən məqsəd Türkiyədə yerli idarəetmə orqanları (bələdiyyələr) tərəfindən “XX əsrin Yerli Gündəliyi” vasitəsilə ilk əvvəl yerli və davamlı inkişaf problemlərinin həllinə istiqamətlənmiş uzunmüddətli, strateji bir planın hazırlanması və həyata keçirilməsi yoluyla məhəlli (lokal) səviyyədə “XXI əsrin Gündəliyi”ndə müəyyən olunan hədəflərə çatmaqdan ibarət idi (5).

Bu layihənin iş proqramında “Pilot şəhərlərdə yerli əhali içərisindəki fərqli qrup və təbəqələrlə müzakirələrə söykənən bir planlaşdırma prosesinin inkişafını təmin edəcək şəhər masştablı fəaliyyət mexanizmlərinin yaradılması və onlara işləklik qazandırılması” başlıca məqsədlərdən biri kimi (2-ci başlıca hədəf) müəyyən edilmişdi. 1997-ci ilin sonlarına yaxın fəaliyyətə başlayan layihə təxminən iki illik bir müddətdən sonra öz funksiyasını başa çatdırdı. Layihənin ikinci mərhələsi olaraq nəzərdə tutulan “Türkiyədə XXI əsrin Yerli Gündəliklərinin həyata keçirilməsi” layihəsi birinci mərhələdə olduğu kimi İULA-EMME-nin koordinatorluğu və UNDP-nin dəstəyi ilə yerinə yetirilməkdəydi. 2000-ci ilin yanvar ayında başlanılan ikinci mərhələ fəaliyyətlərinin 2001-ci ilin axırlarında başa çatdırılması nəzərdə tutulurdu (6).

Birinci mərhələnin davamı mahiyyəti daşıyan ikinci mərhələ layihə sənədi “Türkiyədə XXI əsrin Yerli Gündəliklərinin həyata keçirilməsi” layihəsi Nazirlər Kabineti tərəfindən 12.12.2001-ci il tarixli 2000/1833 saylı qərarı ilə qəbul edilərək 22 yanvar 2001-ci il tarixli 24295 saylı “T.C. Rəsmi Qəzeti”ndə dərc olunmuşdur.

“Milli Fəaliyyət Planı” ilə “XXI əsrin Yerli Gündəliyi” müddəalarından irəli gələn problemlərin necə əlaqələndirilməsi özünün təkmilləşdirilməsini tələb edən bir məsələdir. “XXI əsrin Yerli Gündəliyi” fəaliyyətləri “qlobal ortaqlıq çərçivəsində” Birləşmiş Millətlər nəzdindəki quruluşlar və yerlərdə fəaliyyət göstərən qurumlar arasındakı əməkdaşlığın ən miqyaslı nümunələrindəndir. Birinci mərhələdə üst-üstə cəmi 23 şəhərdə nümunəvi fəaliyyətlərə başladılmışdı.

Qoşulanların ümumi sayı hələlik 40-a çatan (layihə müddəti bo-

yunca isə 50-ni keçməsi nəzərdə tutulan) layihə iştirakçısı şəhərlər bunlardır: Birinci mərhələdə iştirak edənlər İzmir, Antalya, Bursa, İznik və Diyarbəkir böyük şəhər bələdiyyələri ilə Qastamonu eli xüsusi idarəsi və Afyon, Ağrı, Aliağa (İzmir), Burdur, Çanaqqala, Çeşmə (İzmir), Çorum, Foça (İzmir), Gölbaşı (Ankara), Harran (Şanlı Urfa), Qaş (Antalya), Trabzon və Zonquldaq bələdiyyələri; ikinci mərhələyə qoşulanlar isə Adabazarı və Samsun böyük şəhər bələdiyyələri və Babaəski (Qırxlareli), Bürhaniyyə (Balıkəsir), Dəyirmandərə (Qocaeli), Doğu Bəyazid (Ağrı), Gölcük (Qocaeli), Həkkari, İznik (Bursa), Kahta (Adıyaman), Ladik (Samsun), Muğla, Orxan Qazi (Bursa), Ödəmiş (İzmir), Silivri (İstanbul), Ürgüp (Nevşəhir), Van, Yalova, Yalvaç (İsparta) və Yenişəhir/Ağ dəniz (Mərsin) bələdiyyələri. Layihəyə onlarla yanaşı bir də Adana böyük şəhər bələdiyyəsi qoşulmuşdur.

Layihədə iştirak eləyənlər sırasında Ağ dəniz Bələdiyyələr Birliyi, Şərqi Qara dəniz Bələdiyyələr Birliyi, Egey Bələdiyyələr Birliyi, Cənubi Anadolu Layihəsi (Güney Anadolu Projesi – GAP) Bələdiyyələr Birliyi, Mərmərə və boğazları Bələdiyyələr Birliyi ilə qurulma mərhələsində olan İnanc Turizmi Bələdiyyələr Birliyi də yer almışdır.

2002-ci ilin 26 avqustunda Cənubi Afrikanın İohannesburq şəhərində öz işinə başlayan Davamlı İnkişaf üzrə Ümumdünya Sammiti bağlı qapılar arxasında sürən sövdələşmələr və varlı ölkələrin, nə bahasına olursa olsun, iqtisadi mənfəətlərini qorumaq məqsədi daşıyan "incə hesablar" meydanına çevrilir. Dünyanın varlı qismini təmsil eləyənlər beynəlxalq aləmdəki mövcud qeyri-bərabərliyin, ayrı-seçkiliyin onlar üçün təmin etdiyi vəziyyətin davam edə bilməsi üçün "davamlı inkişaf"ı hegemon bir anlayış halına gətirdikləri bir zamanda dünyanın təbii sərvətlərinin və canlı varlıqların istismarını və yox edilməsini də "yasaq" saymaya bilirlər.

Birləşmiş Millətlərin Ümumdünya Sammiti bu mənada iqtisadi, texnoloji və sosial inkişaf ilə bərabər ətraf mühitin qorunması, onun mühafizəsinin gücləndirilməsi arasında bir bağlılıq qurulması məqsədi daşımışdır. Lakin başda ABŞ olmaqla bir sıra ölkələr nə hərbi xərclərin azaldılmasından, nə də atmosferi çirkləndirici texnologiyaları və sağlamlıq üçün təhlükəli tullantıları az inkişaf eləmiş ölkələrə köçürməkdən imtina edirlər.

Belə olan təqdirdə İohannesburq zirvə toplantısı illüziya yaradır və ona artıq səyahətdən, yaxud turist gəzintisindən başqa bir məna vermək qeyri-mümkün görünür. Varlı ölkələrin gündəliyini və verəcəyi qərarları müəyyən edən sammit xoş niyyətlə göstərilən bütün cəhdlərə baxmayaraq, bu qoca dünyaya və onun yoxsul xalqlarına heç də ümid dolu bir gələcək vəd eləyə bilmir. Belə bir şəraitdə dünyanın sahib olduğu təbii sərvətlərin istismarı və kapitalist inkişafı adı ilə onun satışa çıxarılması çox mühüm bir müzakirə obyekti olaraq qalmaqda davam etməkdədir.

Dünyanın sahib olduğu təbii sərvətlərə "qaynaq" (resurs) gözü ilə baxan dünya zənginləri ilə "yoxsulluq zirvəsi"nin yoxsulları və təbii sərvətləri bütün bəşəriyyətin, gələcək nəsillərin ortaq "sərvəti" gözündə görənlər arasında ciddi ideoloji çəkişmələr davam etməkdə, ixtilaflar yaşanmaqdadır (2; 3).

İohannesburq Ümumdünya sammitinin bəzi əhəmiyyətli nəticələri bunlardan ibarətdir:

- 2015-ci ilə qədər yoxsulluğun qarşısının alınması;

- təbii ehtiyatların qorunması və davamlı tələbat strukturları ilə bərpası mümkün enerji məsələləri baxımından xalqın maarifləndirilməsi;

- qloballaşmanın doğurduğu mənfi nəticələrə qarşı inkişaf etməkdə olan ölkələrə yardım göstərilməsi və beynəlxalq əməkdaşlıq;

- yerli idarəetmə orqanlarının gücləndirilməsi və "XXI əsrin Yerli Gündəliyi"nin fəaliyyətinin dəstəklənməsi;

- yerli gənclik şuralarının yaradılmasına dəstək verilməsi.

## ƏDƏBİYYAT


1. Barçın Ağca. "Dünya Sürdürülebilir Kalkınma Zirvesi", http://www.mfa. gov. tr /turkce /grupe/ ues-7/ kalkinma zirvesi.htm.
2. Çevre Mühendisleri Odası, Basın Bildirisi, http://www.cmo.org.tr/basin /rio10.doc.
3. Çevre Mühendisleri Odası, Basın Bildirisi, http://www.cmo.org.tr/basin/ johannesburg-son.doc.
4. Feride Doğaner Gönel, "Johannesburg Zirvesi: Dağ Fare Doğurdu Ama Kimse Şaşırmadı", http://www.yildiz.edu.tr/~gonel/akademikdosyalari/ yayinlar/johannesburg.pdf.
5. Kayhan Kavas, Sibel Sezer, Johannesburg Dünya Sürdürülebilir Kalkınma Zirvesinin Ardından", Türk İdare Dergisi, Yıl 2002, Sayı 437.
6. Türkiye Çevre Vakfı, "Türkiye Açısından Johannesburg Zirvesinin Getirdikleri", Çevre Vakfı Yayınları, Ankara, 2004, sayı 390.
7. United Nations; Economic and Social Council, 28 Ocak-8 Şubat 2002 tarihli Sürdürülebilir Kalkınma Dünya Zirvesi Yerel Yönetimler Raporu. 5 s.
8. www.johannesburgsummit.org.


## ПРИНЦИП УСТОЙЧИВОГО РАЗВИТИЯ И УЧАСТИЕ ТУРЦИИ В ИОГАННЕСБУРГКОМ САММИТЕ


**ЕЙЮБ ЗЕНГИН МУСТАФА ОГЛЫ**


**РЕЗЮМЕ**


26 августа-4 сентября 2002 года в Иоганнесбурге был обнаружен сдвиг, ставящий основу (развитию) новому этапу действительной стабилизации отношениям между человеком и окружающей средой. В Иоганнесбургском Саммите до мелочей были рассмотрены такие важные для пользы Турции вопросы, носящие большое значение, как руководство, обеспечение перехода на устойчивое развитие, отстранение нищеты, рабочий мир и производство, технология и информация, защита биологической разновидности, изменение климатов и т.д., а также были отмечены ошибки и недостатки в этих областях, наряду с достижениями.

## THE PRİNCİPLE OF SUSTAINABLE DEVELOPMENT AND PARTİCİPATİON OF TURKEY İN İOHANNESBURG SUMMİT

**EYUP ZENGIN MUSTAFA oqli**

**SUMMARY**

On August 26 – September 4, 2002, the summit in Iohannesburg opened a new stage in the stabilization of the relations between the man an his environment. Such matters advantageous for Turkey as government, poverty relief, business and industry, information and technology, protection of biological varieties, climate change etc. were illustrated in details at Iohannesburg Summit. The shortcomings as well as the achievements in these spheres were discussed at the Summit